BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Humanitar elmlər seriyası* 2012

**UOT 737**

# Y.A.PAXOMOVUN HƏYAT VƏ YARADICILIĞI

**M.İ.VƏLİYEVA**
***AMEA Arxeologiya Və Etnoqrafiya Institutu***
***aylin70@mail.ru***

*Azərbaycan numizmatikasının bir elm kimi təşəkkül tapması və sonrakı uğurları, qətiyyətlə demək olar ki, numizmatika fondunun yaradılması, bu fondun təsisçisi, həm də uzun zaman mühafizi olan numizmat-alim Yevgeni Aleksandroviç Paxomovun fəaliyyəti ilə bağlıdır. Əşyaların qeydə alınmasını və daxil olma kitablarını məhz alim özü yazmışdı. Alimin numizmatika sahəsində həyata keçirdiyi möhtəşəm işlər Azərbaycanda bu elmin yaranması illərinə, yəni ötən yüz ilin əvvəllərinə təsadüf edir.*

**Açar sözlər:** numizmat-alim, “Qırmızı professorlar”, pul dövriyyəsi, arxeologiya, kartoqraf, Ermitaj muzeyi

XX əsrdə Azərbaycanın sovetlər ittifaqının tərkibinə daxil edilməsi ilə bütün imperiyada bolşeviklərin həyata keçirdiyi xüsusu dövlət ideologiyasının bir hissəsi olan elm və təhsil sahəsindəki yenilikləri həyata keçirmək məqsədilə işğal olunmuş ölkələrə çar Rusiyasının yetirmələri olan “Qırmızı professor”ları göndərməyə başladılar. Xüsusi təmtəraqla respublikalara göndərilən bu dünya şöhrətli alimlər “qırmızı qatarlarla” yerlərə təhkim edilirdilər.

Azərbaycana bu zaman göndərilən alimlər içərisində V.V.Bartold, B.A.Dorn və onlarla hələ də araşdırmaları arxivlərdə saxlanılan mütəxəssislər var idi. Onların hər biri yeni “fəhlə və kəndli” dövlətlərinin hakim qüvvələrindən guya ki, hələ də feodalizmdə yaşayan xalqların tarixinin araşdırılmasına, öyrənilməsinəköməklik göstərməliydilər. Belə alimlərin sırasında Rusiyada numizmatika elminin Şərq bölməsi və müsəlman dövlətlərinin pul və pul dövriyyəsinin, mükəmməl tanınmış mütəxəssisi A.K.Markovun yetirməsi olan Yevgeni Aleksandroviç Paxomov (1880-1965-ci illər) da vardı. O, ixtisasca kartoqraf olsa da, yetkin yaşlarında tarix elminə olan həvəsi onu Ermitaj muzeyində yerləşən məşhur Münskabinetə gətirmişdi. Alim Azərbaycana göndəriləndə kifayət qədər tanınmış mütəxəssis-numizmat idi. Y.A.Paxomov əvvəlcə Gürcüstanın Tiflis şəhərində çalışmışdı. 1919-cu ildə isə xüsusi tapşırıqla Azərbaycana gələrək həm “İstiqlal” muzeyində işləyib, həm də universitetdə dərs deyib. Azərbaycanın tarixi, o cümlədən numizmatika və

arxeologiyası ilə məşğul olub. Y.A.Paxomov Azərbaycanda numizmatikanın əsasını qoyub.

Numizmatika ilə məşğul olmaq, şübhəsiz, araşdırmaçının zəngin kolleksiyaya malik olmasından çox asılıdır. Y.A.Paxomov da kolleksiya toplayıb.

Azərbaycanda numizmatikanın bir elm kimi təşəkkülü və sonrakı uğurları məhz muzeydə Numizmatika fondunun yaradılması, bu fondun təsisçisi və uzun müddət mühafizi olan əməkdar elm xadimi, Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü, tarix elmləri doktoru, professor Yevgeni Aleksandroviç Paxomovun fəaliyyəti ilə bağlıdır. Geniş elmi maraq sahibi olan bu alimin Azərbaycan ərazisində aşkara çıxarılan təsadüfi sikkə tapıntılarının qeydə alınması, toplanılması, tədqiq və nəşr olunması sahəsində göstərdiyi səy, əldə etdiyi elmi nailiyyətlər böyük əhəmiyyət kəsb edir. Azərbaycan tarixinə, arxeologiyasına və numizmatikasına həsr edilmiş yüzdən artıq məqalə və elmi monoqrafiyalar Y.A.Paxomovun qələminin məhsuludur.

1926-cı ildən başlayaraq Y.A.Paxomov artıq məqalələrlə dövrü mətbuatda çox uğurla çıxış etməyə başlayır. Onun ilk məqalələri Azərbaycanı öyrənən "Tədqiq və tətəbbö" Cəmiyyətinin xətti ilə dərc olunan nəşrlər idi. Görkəmli alim Azərbaycanı qarış-qarış gəzərək əhalinin əlində olan qədim sikkələri toplayır, onları cox uğurla araşdırırdı. Bununla da kifayətlənməyən Y.A.Paxomov Qafqazın bütün ərazilərində bu işi həyata keçirir.

"Azərbaycanın və Qafqazın başqa respublikaları, ölkələri və vilayətlərinin dəfinələri" adlanan bu əsər 1926-1966-cı illər ərzində yazılmışdır (19, 21).

Müəllif tərəfindən hər bir cilddə xronoloji qaydada və məkan nəzərə alınmaqla Azərbaycanda, Gürcüstanda və Qafqazın digər vilayətlərindən ayrı-ayrı illərdə, müxtəlif şəraitdə tapılan sikkələr, dəfinələr qeydiyyatdan keçirilərək çap olunur. Ümumilikdə, bu əsərlərdə 2160 müxtəlif metallardan kəsilmiş sikkə nümunələri öyrənilmişdir.

Maraqlı məlumatlardan biri əsrin əvvəllərində aşkar edilən sikkələrin topoqrafiq analizidir.

Müəllif keçən əsrin 20-30-cu illərində saxlanılan yer adlarını olduğu kimi yazır. Bəzi hallarda əgər dəyişiklik varsa, onu da qeyd edir. Bununla da bir daha qədim Azərbaycan torpaqlarının adları əsərdə olduğu kimi saxlanılır.

Çoxcildliyin demək olar ki, hər nəşrində Azərbaycanın Ağdam, Ağcabədi, Bakı, Dəvəçi, Gəncə, Naxçıvan, Şamaxı kimi şəhərlərindən tapılmış sikkə nümunələri haqqında məlumata rast gəlinir.

Bununla yanaşı, Azərbaycanda zərb olunmuş sikkə nümunələrinin digər ölkələrdən tapılması haqqında da məlumatlar əldə olunur. Bütün bunlar isə Azərbaycanın hələ qədim dövrlərdən başlayaraq digər ölkələrlə ticarət əlaqələrinin olduğunu göstərir.

Tədqiqatçı alim Y.A.Paxomov "Azərbaycan tarixinin qısa icmalı" (7) adlı əsərində özündən əvvəlki tədqiqatçıların, o cümlədən B.A.Dornun Kəsranilər sülaləsinin yaranması haqqında öz fikirlərini irəli sürmüşdür. Azərbaycan numizmatikasının bəzi məsələlərini öyrənmək üçün müəllifin yazdığı bu

məqalələrin çox böyük elmi əhəmiyyəti vardır. Bunlar 1938-ci ildə çap olunmuş «Римская надпись I века н.э. и легион XII Фульминат», «Монетные обрашение Азербайджана в XII и начале XIII в.», «Античные монеты в Албании» (в предалах Азерб. ССР) (20) adlı məqalələridir.

Bu məqalələrdəki bəzi fikirlər sonrakı tədqiqatçılar tərəfindən tənqid olunsa da, bütövlükdə öz dövrünə görə bunlardan Azərbaycan tarixini öyrənmək üçün bir mənbə kimi istifadə etmək olar. Numizmatika sahəsinə aid yazdığı əsərlərlə bərabər, Y.A.Paxomovun həmin illərdə fəaliyyət göstərən Azərbaycan Dövlət Universitetindəki (bu gün universitet Bakı Dövlət Universiteti adlanır) pedaqoji fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Y.A.Paxomov universitetin tarix, şərqşünaslıq fakültələrinin tələbələrinə numizmatikadan mühazirələr oxuyurdu.

Alimin azərbaycanlı tələbələrdən kadr hazırlaması məsələsi də görünür, Moskvanın xüsusi tapşırığı idi. Y.A.Paxomov 30-40-cı illərdə Bakıda elmi fəaliyyətini davam etdirməklə bu əhəmiyyətli işə başlayır. Doğrudur, onun tələbələri bəzi hallarda elmdən uzaqlaşırlar, amma bu gün onun yetirmələrindən olan Gürcüstan Arxeologiya Fondunun əməkdaşı, tarix elmləri doktoru İ.L.Calaqani və Azərbaycan Milli Tarix Muzeyinin "Numizmatika" şöbəsinin rəhbəri tarix elmləri doktoru, professor Ə.M.Rəcəbli bu gün elmi araşdırmalarını davam etdirməkdədirlər. Elmi yaradıcılığının qırx ili Azərbaycanla bağlı olan alimin bir arxeoloq kimi də fəaliyyəti danılmazdır.

1924-1925-ci illərdə Y.A.Paxomovun rəhbərliyi ilə Azərbaycan Tarix Muzeyinin İçərişəhərdə apardığı arxeoloji qazıntılar nəticəsində oradan müxtəlif maddi-mədəniyyət nümunələri tapılmışdır.

1935-ci ildə Y.A.Paxomov və S.B.Aşurbəyli Şabran şəhərgahında ilk kəşfiyyat xarakterli qazıntıda iştirak etmişlər ( 3, 105).

1935-ci ildə Y.A.Paxomov tərəfindən Mingəçevirdə kəşfiyyat xarakterli qazıntı işləri də aparılmışdır (2, 7). Sonrakı illərdə də alim Mingəçevir ərazisində abidələrin aşkar edilməsi və qeydiyyata alınması işlərini davam etdirmişdir.

1939-cu ildə Y.A.Paxomovun başçılığı altında Tarix İnstitutunun ekspedisiyası Şamaxı yaxınlığındakı Gülüstan qalasında arxeoloji tədqiqat işləri aparmışdır.

Y.A.Paxomovun başçılığı ilə yaradılan Tarix muzeyindəki Numizmatika fondu bu gün də müvəffəqiyyətlə fəaliyyət göstərir. Alimin uzun illər çalışdığı Azərbaycan Dövlət Universitetində artıq müstəqil Arxeologiya və Etnoqrafiya kafedrasında numizmatika fənni tədris olunur.

Beyləqan qazıntılarından Sasani, Bizans pulları ilə yanaşı, xeyli miqdarda ərəb sikkələri tapılmışdır. Göstərilən məlumatdan aydın olur ki, XI-XIII əsrin əvvəllərində Beyləqanda başlıca olaraq mis puldan istifadə olunmuşdur (1, 114).

Y.A.Paxomov bu dövrün pullarından birinin üzərində Beyləqan şəhərinin adını oxuya bilmişdir. Deməli, hər halda XII-XIII əsrin əvvəllərində də Beyləqanda sikkə zərb olunması davam etdirilmişdir.

O, Şərq ölkələrində numizmatika elminin mürəkkəb məsələlərindən biri olan Sasani sikkələrinin harada zərb olunduğunu təyin etmişdir. Y.A.Paxomovun bu sahədə əvəzolunmaz xidmətlərini qeyd etmiş və göstərmişdir ki, ilk dəfə olaraq bu numizmat-alim Sasani monoqramları təyin etmək üçün yeni metoddan istifadə etmiş.

Y.A.Paxomovun fikrincə, Azərbaycanın qədim şəhərlərindən biri olan Arazdakı Naxçıvan belə adlandırılmışdır. Azərbaycandan çoxlu miqdarda tapılmış "NAXÇ" işarəli monoqramlar xaricdən gətirilmə ola bilməz. Buradan belə nəticə çıxartmaq olar ki, Naxçıvanda Sasanilərin Azərbaycanda yerləşən ilk zərbxanası fəaliyyət göstərmişdir (6, 9).

Ən önəmli məsələlərindən biri də tədqiqatçının Y.A.Paxomovun "Azərbaycanın və Qafqazın digər respublikaların vilayətləri və diyarların pul dəfinələri" (I-IX buraxılışlar) əsasında Azərbaycanda ərəb xilafəti Azərbaycanın feodal dövlətlərində zərb olunmuş sikkələr və pullardan dünya ticarətində geniş istifadə olunmasının tədqiqidir.

Alim Azərbaycan ərazisində tapılmış və xilafətin müxtəlif şəhər və vilayətlərində zərb olunmuş sikkələrə əsasən, ərəb xilafətinin başqa ölkələrlə ticarət əlaqəsini sübut edir. Belə ki, onların bu dövrdə Rusiya, İsveç, Almaniya, İngiltərə, İslandiya ilə ticarət əlaqələrində olduğunu qeyd edir (6, 19).

T.Ə.Quliyev öz tədqiqat əsərində çox haqlı olaraq Y.A.Paxomovun əsərlərinin Azərbaycan tarixinin sosial, iqtisadi və siyasi məsələlərinin öyrənilməsində qiymətli bir mənbə olduğunu göstərmişdir.

## ƏDƏBİYYAT


1. Əhmədov Q.M. Orta əsr Beyləqan şəhəri (tarixi-arxeoloji tədqiqat). Bakı: Elm, 1979, 198 s.
2. Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. Древний Мингечаур (Эпоха энеолита и бронзы). Баку: Академия Наук Азербайджанской ССР, 1959, 191 с.
3. Ашурбейли С.Б. Государство Ширваншахов (VI-XVI вв.) Баку: Авразия-пресс, 2006, 416 с.
4. Кулиев Т.А. Нумизматика Азербайджана в исследованиях Е.А.Пахомова автореф. дисс. на соиск. уч. степени канд. ист. наук. Баку, 2005, 20 с.
5. Пахомов Е.А.Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Баку: Академия Наук Азербайджанской ССР, 1959, вып. VIII, 129 с.
6. Пахомов Е.А. Античные монеты в Албании (в пределах Азерб. ССР) // Сб.: Вопросы истории Кавказской Албании, Баку: 1962, 74 с.
7. Пахомов Е.А.Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Баку: Наука, 1966, вып. IX, 124 с.


## ЖИЗНЬ И ДЕЯТЕЛЬНОСТЬ Е.А.ПАХОМОВА


**М.И. ВЕЛИЕВА**


### РЕЗЮМЕ


В статье рассмотрена жизнь и деятельность основоположника нумизматики в нашей стране профессора, доктора исторических наук Евгения Александровича Пахомова. По линии «красных профессоров» он был отправлен на Кавказ Советской

властью. Так сначала в Тбилиси, а потом в Баку этот известный ученый создал нумизматический фонд при музеях истории и за 50 лет опубликовал огромное количество научных статей и книг как по археологии, так и по нумизматики.

Автор, основываясь на его труды по нумизматике Азербайджана, выявляет главные научные выводы в данной области истории.

**Ключевые слова:** нумизматический ученый, «красные профессоры», денежный поток, археология, картограф, Эрмитаж

## E.A.PAKHOMOV'S LIFE AND ACTIVITY

**M.I.VALIYEVA**

## SUMMARY

The article describes the life and activity of the founder of numismatics in our country, professor, doctor of History E.A. Pakhomov. Through the "red professors" he was sent to the Caucasus by the Soviet authorities. So, first in Tbilisi and later in Baku, this well-known scientist established a numismatic fund within history museums and published a great number of scientific articles and books on archeology, as well as numismatics for 50 years.

The author, basing his writings on the Azerbaijani numismatists identifies key scientific findings in the mentioned field of history.

**Key words:** numismatic-scientist, red professors, cash flow, archeology, cartographer, Hermitage Museum